HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*15 fevral 2017-cı il*
*№003 (41)*

*yeni_yol@mail.ru* / İCTİMAİ QƏZET / "იენი იოლი" საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## V TÜRKİYƏ-AZƏRBAYCAN-GÜRCÜSTAN BİZNES-FORUMU KEÇİRİLƏCƏK

Fevralın 17-də Türkiyənin İstanbul şəhərində Azərbaycan İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə V Türkiyə-Azərbaycan-Gürcüstan biznes-forumunun keçirilməsi nəzərdə tutulur.

AZPROMO-dan verilən məlumata görə, forumda Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevin, Türkiyənin iqtisadiyyat naziri Nihad Zeybekçinin, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Qaxariyanın və digər rəsmi şəxslərin, habelə iş adamlarının iştirakı gözlənilir.

Tədbir zamanı nümayəndə heyətlərinin üzvləri ikitərəfli görüşlərdə iş adamları arasında özlərinə tərəfdaşlar tapmaq və iş əlaqələri qurmaq imkanı əldə edəcəklər.



## TEA SULUKİANİ AZƏRBAYCANDA RƏSMİ SƏFƏRDƏ OLUB



Gürcüstanın ədiliyyə naziri Tea Sulukiani fevralın 11-də Azərbaycana gəlib. O, burada Azərbaycanın Beynəlxalq Açıq Hökumət Təşkilatına qayıtması məsələsini müzakirə edib.

Xatırladaq ki, Azərbaycan bu təşkilatdan 2016-cı ilin mayında çıxarılıb və Gürcüstan bu qərarın əleyhinə olub.

Azərbaycana səfəri çərçivəsində Tea Sulukiani bu ölkənin xarici siyasət idarəsinin rəhbəri Elmar Məmmədyarovla və həmkarı Fikrət Məmmədovla görüşlər keçirib. Gürcüstanın ədliyyə naziri Azərbaycan Milli Məclisinə də baş çəkib.

Qeyd edək ki, Gürcüstan 2017-ci ildən Beynəlxalq Açıq Hökumət Təşkilatına sədrlik edir. Təşkilatın növbəti sammitinin gələn il Tbilisidə keçirilməsi nəzərdə tutulur. Bu təşkilat rəsmi şəkildə 20 sentyabr 2011-ci ildə açıq dövlət ideallarının möhkəmlənməsi məqsədilə təsis olunub. Sıralarında 69 ölkəni birləşdirir.

## GÜRCÜSTANDA YENİ ŞƏHƏR SALINIR



Georgian Ventures & İnvestment gürcü şirkəti və Salim Ali Al Shamsi Real Estate ərəb kompaniyası Tbilisi yaxınlığında Saguramo Gardens adlı müsir standartlara malik minişəhərin tikintisinə başlayır.

Bu barədə jurnalistlərə ərəb şirkətinin meneceri Əkbər Kureşi məlumat verib.

O, birgə layihə üçün Saquramoda 35 ha ərazi ayırıldığını bildirib. Orada yaşayış korpusları və fərdi villalar, dördulduzlu otel, restoran və kafelər, tibb mərkəzi, ticarət və idman obyektləri, habelə istirahət parkı və nikah sarayının tikintisi nəzərdə tutulur.

Əkbər Kureşi Saguramo Gardens minişəhərinin 5 min sakin üçün və layihənin təxminən dörd il ərzində gerçəkləşdirilməsinin nəzərdə tutulduğunu qeyd edib. O, məxfilik məqsədilə layihənin ümumi sərmayə dəyəri barədə məlumat verməkdən yayınıb.

Xatırladaq ki, Salim Ali Al Shamsi Real Estate şirkətinin əsası 1990-cı ildə qoyulub və indiyədək əsasən BƏƏ-də və Səudiyyə Ərəbistanında müxtəlif layihələrin gerçəkləşdirilməsi ilə məşğul olub.

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYACANA RƏSMİ SƏFƏR EDİB



Gürcüstan XİN-nin başçısı Mixail Canelidze Bakıda rəsmi səfərdə olub. Fevralın 13-də onun Azərbaycan prezidenti İlham Əliyevlə görüşü baş tutub.

Görüşdə tərəflər Azərbaycan və Gürcüstan arasında mövcud olan strateji münasibətlərə dair məsələləri müzakirə ediblər.

Bundan əlavə regional əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycanın birgə nəqliyyat və enerji layihələrində iştirakı məsələləri də müzakirə edilib.Tərəflər Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini də əhatə edən Cənub nəqliyyat dəhlizinin inkişafı istiqamətində sıx əməkdaşlığı davam etdirmək barədə razılaşıblar.

Gürcüstan XİN-in başçısı həmkarı Elmar Məmmədyarovla da görüşüb.İki ölkənin xarici siyasət idarələri başçılarının təkbətək görüşündən sonra görüş geniş formatda davam etdirilib.

## ABŞ GÜRCÜSTANDA HƏRBI BAZA AÇACAQ

ABŞ Gürcüstanda hərbi hazırlıq mərkəzi tikəcək. Bu barədə Gürcüstanın müdafiə naziri Levon İzoriya ilə ABŞ-ın briqada komandiri Antonio Aqustonun Almaniyadakı görüşündə razılıq əldə edilib. Hərbi hazırlıq mərkəzi ABŞ-ın Almaniyadakı bazasına oxşar şəkildə inşa ediləcək.

Levan İzoriya mərkəzin yaradılması ilə bağlı deyib: "Bu çox iddialı bir plandır, bu il həyata keçirmək niyyətindəyik".

Antonio Aqustonun tikintinin detallarını müzakirə etmək üçün Gürcüstana səfər edəcəyi gözlənilir.

## CÜRCÜSTAN ƏHALİSİNİN 8%-İ NATO-NU TƏHLÜKƏ MƏNBƏYİ HESAB EDİR

Gürcüstan vətəndaşlarının 8%-i NATO-nu təhlükə mənbəyi hesab edir. Amerikanın Gallup İctimai Fikir İnstitutunun keçirdiyi rəy sorğusunun nəticələri bunu deməyə əsas verir.

Rəy sorğusunun nəticələrinə görə, Gürcüstanda respondentlərin 37%-i Şimali Atlantika alyansını ölkə üçün müdafiə sayırlar. Rəyi soruşulanların 55%-i isə bu suala cavab verməkdən yayınıblar.

Gürcüstanın yaxın qonşusu Rusiyada respondentlərin 67%-i Alyansı təhlükə kimi, cəmi 3%-i isə müdafiə kimi qəbul ediblər.

Azərbaycanda əhalinin 21%-i NATO-nu müdafiə kimi qəbul etsə də, 16%-i onu təhlükə mənbəyi hesab edib.

Belarusda qurumun tərəfdarları 3%, əleyhdarları isə 54% olub. Ukraynada əhalinin 29%-i NATO barədə müsbət rəy bildirsə də, 35%-i onu hərbi təhlükə mənbəyi hesab edib.

2 AVROPAYA UZANAN YOLUMUZUN BƏZİ MƏQAMLARI
ZİKRƏ BAĞLI GÖZƏLLİKLƏR YOLUNDA 3
4 TRAMPIN İSLAM ÖLKƏLƏRİNƏ QARŞI QADAĞALARININ GİZLİNLƏRİ
UĞUR QAZANMAQ BARƏDƏ BİR NEÇƏ SÖZ 5
6 BİRİ YOX İDİ, BİRİ DƏ HEÇ YOX
14 FEVRAL SEVGİ YOX, TARİXİ KÜTLƏVİ ƏXLAQSIZLIQ GÜNÜDÜR 7



## AVROPAYA UZANAN YOLUMUZUN BƏZİ MƏQAMLARI

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Nəhayət ki, gözlədiyimiz baş verdi. Gözləməkdən gözümüzün kökü saralmışdı, şükür, bu arzumuza da çatdıq, deyə bilərik. Avropa Birliyi bizim üçün vizanı sadələşdirdi, qapılarını üzümüzə açdı. Bu yerdə adamın atılıb düşməyi gəlir, hələ bir sevincindən kəlləmayallaq aşmağı, ayağa qalxanda isə çırtıq çalıb oynamağı gəlir. Niyə də olmasın? Zarafatdırmı Avropa Birliyinə üzv olan dövlətlərə gediş-gəlişimiz sadələşdirilir, asanlaşır, Avropa məkanı deyilən geniş bir ərazi bizə qucaq açır. Elə bu, adamın şadlığından şitlik etməsinə yetər, lap yeri gələndə artıqlıq da edər və niyə də etməsin?**

Hə, fevralın 2-də o boyda Avropa Parlamenti ölkəmizlə viza rejiminin sadələşdirilməsinə dair məsələyə səs çoxluğu ilə tərəfdar olduğunu bəyan elədi. Və bizim bu tarixi qərardan yararlanmamıza sayılı günlər qaldığını da yadınıza salmaqdan özümü saxlaya bilmirəm. Bizim Avropa məkanına ayaq basmamız üçün yaradılan bu şəraitdən dolayı sevinmək haqqımızın olduğunu bir daha altını cızaraq söyləyirəm. Nədən ki, biz 500 milyondan çox insanın yaşadığı məkana bir köynək də yaxınlaşırıq. Bu yaxınlaşma nəticəsində yeni insanlarla, yeni dəyərlərlə tanışlığımız istisna deyil və avropalıların da bizi, ölkəmizi tanıma imkanları genişlənir.

Avropaya gedirik. Bizə uğrumuz xeyir olsun deməkdən başqa nə qalır? Avropaya gediş-gəlişimizdən qazancımız, çıxarımız nə olacaq və ya uzun müddətdir can atdığımız bu məkanda bizi nə gözləyir? Bax, məsələnin ən önəmli, diqqət yetiriləsi məqamı da budur. Bəri başdan yaddaşımızı bir də təzələyək ki, biz Avropa Birliyi ilə vizanın sadələşdirilməsi nəticəsində altı ay ərzində 90 gün bu məkanda sərbəstcə gəzib dolaşmaq imkanı qazanırıq. Üstəgəl, biz bu haqqımızdan bir dəfəyə də istifadə edə bilərik, bir neçə dəfəyə də. Sadəcə bizim yarım il ərzində Avropa Birliyi ölkələrində qalmamız 90 günü aşmamalıdır. Vəssəlam, məsələ bu qədər sadə və bəsitdir.

Vizanın liberallaşdırılması bizim həmin saat avropalı olacağımız anlamına gəlmir. Əslində belə olsaydı, onda yoğurmadan, yapmadan kökə tapmış olardıq. Nədən ki, viza rejiminin sadələşdirilməsinə baxmayaraq, bu, bizə getdiyimiz ölkələrdə işləmək hüququ vermir, yəni bizə bu haqq tanınmır. Amma olsun, heç olmamaqdan bu da hələlik bizi qane etməlidir. O üzdən ki, biz heç olmasa sadə bir yolla turist səfərlərinə çıxa bilərik, burada yaşayan dost-tanışımıza, qohum-əqrabamıza baş çəkə bilərik, müxtəlif elmi-mədəni tədbirlərə qatıla bilərik, maliyyə-biznes maraqlarımızı təmin etmək üçün sərgilərdə, toplantılarda iştirak edə bilərik, bu və ya digər sahədə ortaqlar, həmfikirlər tapa bilərik, bu müddət ərzində müalicə olunmaq, qısa təhsil kurslarında bilik və bacarıqlarımızı artırıb təkmilləşdirmək imkanı qazanarıq. Vallah, mənim düşüncəmə görə, adama getdiyi hər hansı bir ölkədə bundan artıq xoş üz, qonaqpərvərlik də göstərməzlər. Müəyyən bir müddət üçün bununla da keçinmək olar. Bir az Avropaya isinişərik, bir az Avropanın üzü-gözü bizə öyrəşər, bir az da özümüzə çəki-düzən verərib bilmədiyimizi öyrəndikmi, avropalı olub gedəcəyik və bundan sonra Avropa bizim sinəmizdən geri itələməyəcək, biz də bu böyük Avropa ailəsinin bir üzvünə çevriləcəyik. Təki bundan usanıb, bıqmayaq.

Dünya gör-götür dünyası olduğundan Avropaya ayaq basmaqla ən azından yaxşı nə varsa əxz edib, özmüzünküləri də üzərinə qoymaqla yeni maddi və mənəvi dəyərlər yarada bilərik. Bütün buraya qədər dediklərimiz, yazdıqlarımız işin ən gözəl və ürəkaçan tərəfidir. İndi gələk məsələnin o biri tərəfinə və baxaq görək burada bizi nə gözləyir. Düzünə qalsa bu tərəfdə də qorxacaq, çəkinəcək bir zad yoxdur. İşin ikinci tərəfi Avropanın müşkülü deyil, bizim əməl etməli olduğumuz bir şeydir. Nədən ki, sağ olsun Avropanı, layiq bilib bizə gediş-gəliş üçün rahatlıq yaradır və biz də bunun qədrini bilməliyik. Getdiyimiz ölkələrin qanunlarına, dəyərlərinə hörmət etməliyik, yəni gəmiyə minib, gəmiçi ilə dava etməməliyik. Əks təqdirdə həyata keçməkdə olan bu arzumuzun üstünə bir ağır daş qoymalı olacağıq. O üzdən ki, xöş beş, on beş etmədən uzun intizardan sonra əldə etdiyimiz sadələşmiş viza rejimini ləğv edəcəklər. Bunu ölkəmizin rəsmiləri də bu və ya digər dərəcədə səsləndiriblər.

**İndi əl mənim, ətək sizin, nəbadə Avropaya səfər edəndə qanun-qaydanı pozmağa cəhd edək. Birincisi, bu bizim özümüzə xeyir gətirməyəcək və biz qanunları pozmuş şəxs kimi cərimələnəcəyik, hətta həbs olunacağıq. İkincisi, deportasiya olunacaq və beş il ayağımız Avropaya dəyməyəcək. Üçüncüsü və ən ümdəsi, mütamadi olaraq Avropa qanunlarını pozmaqla öz həmvətənlərimizin gediş-gəlişinə də əngəl olacayıq. Nədən ki, Avropa Parlamenti Gürcüstanla vizanın sadələşdirilməsi qərarını verərkən bütün bunları nəzərə alıb və tərəfimizdən çox sayda qanun pozuntusu edilərsə, sadələşdirilmiş viza rejiminə son qoymaq haqqından istifadə edəcək. Və olanlar bizə olacaq...**

## AVROPA PARLAMENTİ GÜRCÜSTANLA VİZA REJİMİNİN LƏĞV EDİLMƏSİNİ DƏSTƏKLƏDİ

Avropa parlamenti fevralın 2-də Gürcüstan üçün vizaların liberallaşdırılması haqqında təklifin leyinə səs verib. Bunun nəticəsində biometrik pasporta sahib olan Gürcüstan vətəndaşları viza almadan Şengen ölkələrinə səfər edə biləcəklər, lakin onlar bu ölkələrdə hər 180 gün ərzində 90 gündən artıq qala bilməzlər.

Gürcüstan üçün vizaların liberallaşdırılmasına Avropa parlamentinin 553 üzvü tərəfdar çıxsa da, 66 parlamentari bunun əleyhinə səs verib, 28 deputat isə bitərəf qalıb.

Avropa İttifaqı strukturları Gürcüstan üçün vizasız rejimin dayandırılma mexanizmi ilə birlikdə fəaliyyət göstərəcəyi barədə razılığa gəliblər. Bu mexanizmin tətbiq edilməsini Avropa İttifaqına üzv dövlətlərin daxili təhlükəsizliyi ilə əlaqələndiriblər.

Bundan sonra təklif təsdiqlənmək üçün Avropa İttifaqı Şurasına təqdim ediləcək.

## RUSİYA XARİCİ İŞLƏR NAZİRLİYİ GÜRCÜSTANLA VİZA REJİMİNİN LƏĞVİNİ MÜMKÜN HESAB EDİR

Fevralın 8-də Moskvanın gələcəkdə Gürcüstanla viza rejiminin sadələşdirilməsi və hətta onun tamamilə ləğv edilməsinin mümkünlüyünü düşündüyü barədə Rusiya XİN-nin məlumatı yayılıb.

Rusiya XİN-nin rəsmi səhifəsində Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasinlə Gürcüstan Baş Nazirinin xüsusi nümayəndəsi Zurab Abaşidzenin Praqada baş tutmuş məsləhətləşmələrinin yekunlarına dair yerləşdirilmiş məlumatda qeyd olunur ki, "Karasin gələcəkdə viza rejiminin yüngülləşdirilməsi fikrini təsdiqləyib, perspektivdə onun tamamilə ləğv olunmasını istisna etməyib".

Məlumatda Gürcüstanla viza rejiminin yüngülləşdirilməsi və ya ləğv olunması məsələsinin həllinin gürcü hakimiyyətinin bu vacib məsələyə necə münasibət bəsləməsindən asılı olduğu da vurğulanıb.

## HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ YENİDƏN BƏRPA OLUNDU



Gürcüstanın Müdafiə Nazirliyi həqiqi hərbi xidmətə çağırışı bərpa etdikdən sonra fevralın 14-də gənc əsgərləri yenidən hərbi xidmətə qəbul edib.

Həmin gün 140 gənc çağırışçı hərbi xidmətə qəbul olunub.

Müdafiə Nazirliyinin Baş Qərargah rəisi Vladimir Çaçibaya və digər yüksək rütbəli zabitlər hərbi xidmətə yeni qəbul olunmuş əsgərlərlə görüşüb.

Həqiqi hərbi xidmət keçmə ilə əlaqədar qaydalara dəyişiklik olunub. Belə ki, əvvəllər həqiqi hərbi xidmətə çağırılanlar əsasən hərbi obyektlərin mühafizəsi və logistika ilə məşğul olurdular. Yeni dəyişikliklərə əsasən, çağırışçı gənclər müqavilə əsasında xidmət keçən hərbçilərlə yanaşı, ağır fiziki şəraitdə 10 həftəlik hərbi döyüş, atəş və taktiki hazırlıq keçəcəklər. Bununla yanaşı, əsgərlər istirahət günlərini evlərinə gedə biləcəklər.

Baş Qərargah rəisi deyib ki, əsgərlər tam hərbi hazırlıq keçəcək, hərbi təlimlərdə iştirak edəcəklər.

Gürcüstanda həqiqi hərbi xidmətə 18 yaşdan 27 yaşadək gənclər çağırılırlar. Həqiqi hərbi xidmətin müddəti 12 aydır və çağırış ildə iki dəfə, yazda və payızda həyata keçirilir.

Xatırladaq ki, həqiqi hərbi xidmətə çağırış sabiq nazir Tinatin Xidaşelinin əmri ilə 2016-cı ilin yayında ləğv edilmişdi. Yeni nazir Levan İzoriya isə 2016-cı ilin noyabrında ölkə vətəndaşlarının həqiqi hərbi xidmətə çağırışını bərpa etdi.

## QADINLARIN HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞRILMASI HAQQINDA QANUN LAYİHƏSİ GÜNDƏMDƏDİR



Parlamentdə yeni qanunvericilik təklifi qeydə alınıb. Təşəbbüskar hərbi xidmətə çağırışın qadınlar üçün də məcburi olmasını təklif edir.

Bu qanun layihəsi ölkənin "Həqiqi hərbi xidmət haqqında" Qanununa düzəliş edilməsini və Qanuna əsgər qadın anlayışının daxil edilməsini nəzərdə tutur.

Qanunvericilik təklifinin müəllifi vətəndaş İrina Barbakadze vurğulayıb ki, "Gender bərabərliyi haqqında" Gürcüstan Qanununun mövcud olmasına və gender bərabərliyinin qadın və kişiləri bütün sahələrdə bərabər elan etməsinə baxmayaraq, qadınlar yenə də zəif məxluq olaraq qalırlar.

Sənəddə deyilir: "Dövlət onlara öz həyatlarını öz baxışlarına görə müyyənləşdirmələrinə yardım edir. İkinci tərəfin əziyyət çəkməməsi üçün onlara konkret vaxt ərzində konkret qərar qəbul etməyə imkan verir, lakin qadınlar yenə də zəif məxluq olaraq qalırlar. Gürcüstan qanunvericiliyinə görə, həqiqi hərbi xidmətə yalnız kişilər çağırılırlar".

## CƏMİYYƏTİMİZİN "VALİDEYİNLİ YETİMLƏRİ"

***Müzakirə olunan mövzu real faktlara əsaslanır, heç bir xəyali fikirlərdən qaynaqlanmır. Mövzumuza başlamadan öncə hər valideynə öz salamlarımı və hörmətlərimi çatdırmaq istəyirəm. Valideyn adı almaq və o vəzifənin öhdəsindən gəlmək şərəfli bir işdir. İnsanoğlu bu vəzifəni üzərinə götürməklə cəmiyyət üçün gələcək bir ailənin valideynini yetişdirir. Hər mövzunu cəmiyyətlə başlamağımda sadəcə bir məqsədim var: istəyirəm insanlarımız bir iş görərkən sadəcə özünü, öz ailəsini, yaxınlarını düşünməsin, yaşadığı cəmiyyəti də nəzərə alsın.***

Sözü çox uzatmadan keçək əsas mövzuya, ənənəmizə sadiq qalaraq mövzunun başlığı haqqında fikir aydınlığı yaratmaq istəyirəm. Cəmiyyətimizin "valideynli yetimləri" başlığına şübhə ilə yanaşanlara demək istəyirəm ki, təkrar oxumağa ehtiyac yoxdur. Bu nə çap səhvidir, nə də bir başqa səhv, düzgün anladınız. Bu yazıda sadəcə evində uşaq səsi gəldiynə görə özünü valideyn sayan ata-anadan və sadəcə atası-anası olduğu üçün özünü övlad sayan uşaqlardan söz açacağam.

Mövzumuza uşağın anadan olması ilə başlayaq. Atanın laqeydliyi burdan başlayır. Yanında olanlara öz həyəcanını, öz sevincini bildirməməlidir. Çünki o bir kişidir. Cəmiyyətin dili ilə desək, soyuqqanlı olmalıdır. Ancaq pul və ya sənət işlərini yoluna qoyan bir mexanizmdir.

Uşaq anadan olandan sonra məclis qurub sevinmək hər bir insan üçün normal haldır. Qeyri-normal olanı isə Allahın bizə haram buyurduğu içki ilə Allahdan yeni doğulmuş körpə üçün yaxşı günlər istəməkdir.

İllər, aylar keçir "kiçik toy" dediyimiz, dinimizdə də buyurulan bir mərasim keçirilir. Amma biz yenə də dəm-dəsgahlı süfrələr qururuq, badələr qaldırırıq. Ata bir ay qabaq gecə-gündüz yatmayıb hamını necə yola salmaq üçün toplayır, çıxır. Ana da sabah qonum-qonşuların yanında dilxor olmamaq üçün bütün ağlına gələcək yeməkləri hazırlamaq üçün əl-ayağa düşür. Uşaq sadəcə bir vasitə olur, elə həmin gündən onu qızılla, pulla tanış edirik. Sabah qızını imkanı olmadığı üçün oxutdurmayıb ərə verəcək olan valideyn bu gün həmin qızı gözəllik salonlarında gəzdirir.

Sonrakı illərdə valideyinin sadəcə 3 vəzifəsi olur:

1. Övladım ac qalmasın
2. Övladıma soyuq olmasın
3. Övladım pulsuz qalmasın

Sadəcə bu öhdəlikləri həyata keçirərək valideyinlər bir məsələni yaddan cıxarırlar ki, övlad üçün sadəcə bunları etməklə öz əlləri ilə onu gələcəkdə ac, soyuqda və pulsuz qoya bilərlər. Ancaq bunlara aşağıdakı vəzifələr əlavə olunarsa təkcə onların övladı deyil, bütün cəmiyyət ac, soyuqda və pulsuz qalmaz:

4. Övladım tərbiyəli böyüsün
5. Övladım əxlaqlı olsun
6. Övladım təhsil alsın

Niyə bu sıralamanı seçdim? Çünki uşaq dünyaya gələrkən müəyyən yaşa qədər bəzi şeyləri başa düşmür. Onu valideyn tərbiyə etməli, yaxşını, pisi onun ayırd etməsi üçün yardımçı olmalıdır. Müəyyən yaşdan və bəzi məsələləri dərk etdikdən sonra onun aldığı tərbiyə onda düzgün əxlaqın formalaşmasına gətirib çıxaracaq və sonda ən önəmli məsələ olan təhsil onun həyatda hansı mövqeyi tutacağını müəyyənləşdirən əsas faktora çevriləcək.

Öncədən sadaladığımı (1,2,3) etməklə valideyn bir ailə üçün övlad yetişdirə bilər, bunlarla bərabər sonra sadalananları həyata keçirdikdə isə (4,5,6) cəmiyyət üçün faydalı insan yetişdirər.

Bu önəmsiz görünən məsələlər haqqında övladlarınızla söhbət edin, onların fikirlərini dinləyin. Bunları edərsinizsə, övladınızla öz aranızda körpü qurar və istənilən anda o körpüdən keçərək övladınıza kömək edə bilərsiniz. Yox, əgər bu körpü qurulmazsa, bir andan sonra özünüzü uçurumun bir tərəfində, övladınızı isə o biri tərəfində görərsiniz.

Onların fikirlərini öyrənmədən qərarlar verməyin, yoxsa onlar da qərar verəndə sizin fikirlərnizlə hesablaşmayacaqlar.

Bunları mən özümdən uydurmuram, bu problemlər illər boyu bizim cəmiyyətdə olub, var və olacaq. Sadəcə öz fikirlərimi, üzdə olub görünməyən və yaxud da görmək istəmədiyimiz problemləri çatdırıram.

**Son sözüm isə budur: övladlarınıza tərbiyə və təhsil verin, geridə qalanları o, özü əldə edəcək!**

Elnur XƏMMƏDOV

## GƏNCLƏRİN QANUNLARDAN XƏBƏRSİZ OLMASI BİR SIRA PROBLEMLƏR YARADIR

Gürcüstanın Azərbaycanlı Hüquqşünaslar Assosiasiyası (GAHA) "Gürcüstanda azərbaycanlı gənclərin hüquqi maarifləndirməsi" layihəsini davam etdirir.

"Report"un Gürcüstan bürosu xəbər verir ki, layihə çərçivəsində növbəti görüş azərbaycanlıların yığcam yaşadıqları Marneuli rayonunda keçirilib.

Gürcüstanın ali təhsil ocaqlarında təhsil alan tələbələrin, müxtəlif sahələrdə çalışan gənc mütəxəssislərin iştirak etdiyi tədbirdə milli azlıqların konstitusion hüquqları, beynəlxalq hüququn tələbləri və digər məsələlər müzakirə olunub.

GAHA-nın təsisçisi, hüquq elmləri magistri Əli Bədirov bildirib ki, Gürcüstan vətəndaşı olan azərbaycanlılar konstitusiya ilə təsbit olunmuş bütün hüquqlara malikdirlər. Lakin bəzi gənclərin dövlət dilini bilməməsi, qanunlardan xəbərsiz olması bir sıra problemlər yaradır. Bu gün gənclərin erkən ailə qurmaları, boşanmalar, daşınan və daşınmayan əmlakla, eləcə də, yerli bələdiyyələrə və parlamentə keçirilən seçkilərdə iştirakla bağlı mövcud olan problemləri də onların öz hüquqlarını bilməməsindən irəli gəlir.

Əli Bədirov gənclərin suallarını cavablandırıb, problemlərinin həlli ilə bağlı hüquqi yardım göstərib.

## GÜRCÜSTANDA EV DUSTAQLIĞI CƏZASI TƏTBİQ ETMƏK PLANLAŞDIRILIR

Gürcüstanda azadlıqdan məhrumetmə cəzası əvəzinə ev dustaqlığı cəza növü tətbiq etmək planlaşdırılır.

Bu, hökumətin parlamentin müzakirəsinə təqdim etdiyi "Həbs haqqında Məcəllə"də dəyişikliklər etməyi planlaşdıran qanun layihəsində nəzərdə tutulur.

Cəzaçəkmə və Probasiya Nazirliyinin hazırlayıb parlamentə təqdim etdiyi qanun layihəsinə əsasən, nazirliyə məhbusun yazılı müraciəti olduğu halda və qanunun müəyyən etdiyi cəzanın çəkilməsindən sonra



qalan cəza müddətini daha yüngül forma ilə – ev dustaqlığı ilə əvəz etmək səlahiyyət verilir.

## ZİKRƏ BAĞLI GÖZƏLLİKLƏR YOLUNDA



Hacı BƏKİROĞLU
kafkasli@mail.ru

**Çağımızın ən yolxucu xəstəliyi stress, şiddət və dözümsüzlükdür. Halbuki ürəklərimiz, stressimiz ancaq Quranı yaxşı anlamaq və Allaha olan təslimiyyətlə sakitləşər. Dinin yalnız halal və haramlardan ibarət olmadığını, mərhəmətin də, şəfqətin də, lazım olsa işıqforun qırmızı işığına uymamızın da dinin gərəyi olduğunu anlayarsaq, bax, işdə o zaman ürəklərimiz də daha tez sakitləşəcək.**

Qurani Kərim mənəvi doyumsuzluğun, stress və dözümsüzlüyün dərmanının Uca Allahla yaxınlaşmaq olduğunu söyləyir. "Diqqət edin. Ürəklər ancaq Allahı xatırlayaraq sakitləşər." Bunun üçün "zikr" sözünü istifadə edər. Bunu "xatırlamaq" olaraq da qeyd etmək olar. Əslində bu kəlimənin anlamı daha zəngindir. Zikri, yalnız xatırlamaq cümləsiylə izah etmək doğru olmaz. Ayəni məhdudlaşdırmış olarıq.

Təvəkkül bir zikrdir. Sevmək bir zikrdir. Mərhəmət bir zikrdir. Bağışlamaq bir zikrdir. Quran bir zikrdir. Namaz bir zikrdir. Bu siyahını çox uzada bilərik. Amma əhəmiyyətli olan bütün bu ərdəmləri sırf Allah üçün etməkdir. Qurani Kərim ancaq bununla ruhumuzun sakitləşəcəyini deyir. Müalicə budur buyurur.

Peyğəmbərimiz (s.ə.s) "Asanlaşdırın, çətinləşdirməyin, sevdirin, nifrət etdirməyin" buyuraraq ümumi qanununu həyatın bütününə yaymamızı istəyir.

Hz. Peyğəmbər şəxsi həyatında da bu düsturu əsas almışdır. Onun bu rəftarını izah edən Hz. Aişə (r.ə) belə buyurur:

"Peyğəmbərimiz (s.ə.s) iki dünya işi arasında seçim qarşısında buraxılınca günah olmadıqca mütləq onlardan ən asan olanını seçərdi. Əgər günahı tələb edən bir mövzu olsa ondan insanların ən uzaq olanı Hz. Peyğəmbər (s.ə.s) olardı. O, heç özü üçün kin tutub qisas almamışdır."

Asan olanını seçən bir peyğəmbər. Bizə də asan bir din əmanət edən bir peyğəmbər. Bir-birimizlə əlaqələrimizdə dözümlülüyü və asanlığı nəsihət edən bir peyğəmbər. Bizlər isə həmişə bizə qarşı anlayışla davranılmasını istəyərik, amma başqasına qarşı bunu etmirik.

Bir gün Hz. Aişə və Hz. Hafsa nafilə oruc tutmuşlar. Ramazan ayı deyil. (Bilindiyi kimi başlanmış olan nafilə oruc toy, dəvət kimi səbəblərlə, ehtiyac olduqda pozula bilər, amma sonradan qəza edilməlidir.) Hadisəni Hz. Aişə (r.ə) belə izah edir:

"Biz orucluykən iştahımızın çəkdiyi bir yemək gətirildi. Canımız çəkdi. Biz də özümüzü tuta bilmədik və tutduğumuz o nafilə orucu pozduq. Hz. Peyğəmbər (s.ə.s) gəldiyində Hz. Hafsa vəziyyəti Peyğəmbərimizə izah etdi. Hz. Peyğəmbər (s.ə.s) üzülmədi, qınamadı "Başqa bir gün qəza edərsiniz" – buyurdu. (Əhməd, Müsned, 6, 263)"

Bütün gücünü sərf etdiyi halda Fatihə Surəsini və Qurani Kərimdən hər hansı bir surəni əzbərləyə bilməyən və namaz qılmaq istəyən adama göstərilən anlayış?… Peyğəmbərimiz (s.ə.s) adama tərəf dönür və deyir ki: " Əlhəmdülillah, sübhanallah, lə həvlə vəla qüvvətə illə billah (güc və qüdrət Allaha aiddir) de yetər. Namazı bunlarla qıl" – deyir.

Əzbər pozan rəftarlar bunlar deyilmi? Görəsən neçəmiz bunları bilirik? Hüceyrələrinə, damarlarına qədər sevgi, mərhəmət və şəfqət sinmiş olan bir dinin mənsubları bir-birlərinə qarşı daha anlayışlı, mərhəmətli olmalı deyildirlərmi?

Amma təəssüf ki, elə deyilik. Bu mövzuda özümüzlə üzləşməliyik. Yaxşı müsəlmanlığı başqasından deyil, özümüzdən gözləməliyik. Dinin yalnız halal və haramlardan ibarət olmadığını, mərhəmətin də, şəfqətin də, bağışlayıcılığın da, kasıb doyurmanın da dinin gərəyi olduğunu izah edək. Və hər birimizin digərimizə son sözü bu olsun.

**"Allah"ın təmiz olaraq yaratdığı fitrəti pozma haqqına sahib deyilik. Çünki yalnız fitrəti deyil, kainatı da, ekoloji tarazlığı da zədələmiş oluruq.**



# TRAMPIN İSLAM ÖLKƏLƏRİNƏ QARŞI QADAĞALARININ GİZLİNLƏRİ

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

**ABŞ-ın yeni prezidenti Donald Tramp prezidentlik kreslosunu isitməmiş qərari ilə özünün iç üzünü dünyaya göstərdi. Ağ evin yeni administrasiyası 7 müsəlman ölkəsi - İran, İraq, Yəmən, Liviya, Sudan, Somali və Suriya vətəndaşlarının ABŞ-a girişinə rəsmi olaraq qadağa qoymaqla yanaşı, ümumiyyətlə yeni qaçqınların qəbul edilməsinə 120 günlük moratorium tətbiq etdi. Prezident Tramp bu addımı atmasını ilk öncə seçkiqabağı verdiyi vədlərə sadiq qaldığı ilə əsaslandırır və ilk sırada ABŞ xalqının təhlükəsizliyi olduğunu vurğulayır. Amma, belə bir addım reallıqdanmı doğur, yoxsa bu qərarın arxasında şəxsən Trampın və ABŞ-ın məkirli siyasətimi gizlənir?**

Hazırki vəziyyətdə görünən odur ki, ikinci səbəb həqiqəti daha çox əks etdirir. Çünki, Nyu-Yorkdakı müəmmalı 2001 hadisəsindən başqa ABŞ ərazisində heç bir "samballı" terror hadisəsi baş verməmişdir. Yaxud baş vermişdirsə, terror olayı ilə heç bir İran vətəndaşının əlaqəsi yoxdur. Əksinə, bu terror aktlarının iştirakçısı Səudiyyə Ərəbistanı, Əfqanıstan və Pakistan mənşəli terrorçular olmuşlar. Lakin fakt odur ki, qadağa siyahısında qeyd olunan ölkələrin heç biri yoxdur. Digər tərəfdən, bu ölkənin təhlükəsizliyinin ən yüksək səviyyədə mühafizə olunduğunu və qadağa tətbiq edilən dövlətlərlə heç bir coğrafi sərhədlərinin olmadığını da nəzərə alsaq Trampın qərarının nəyə hesablandığını daha aydın sezmək olar. Hədəfi son 20 ildə islamın sürətlə ABŞ-da yayılmasına qarşı məhdudiyyət kimi dəyərləndirmək olar. Özünü demokratiyanın "beşiyi" adlandıran bir dövlətin başçısının biabırçı sərəncamı sırf diskriminasiya xarakterlidir. Nəzərə almaq lazımdır ki, ABŞ zamanında Avropadan sürgünə məruz qalmış, miqrasiya olmuş və Afrikadan satılmış qulların hesabına yaradılmış dövlətdir.

Yuxarıda adları qeyd olunan ölkələrə viza "embarqo"ları tətbiq edilməsinin əsl səbəbi isə hədəfdə İranın olmasıdır. Ağ ev Tehranı vurmaq üçün indidən zəmin hazırlamaqdadır. ABŞ uzun illərdir ki, amerikan cəmiyyətində İranın simasında terrorizm assoasiyası yaratmaqdadır. Vaşinqton İranı vurmaq üçün hər dəfə müxtəlif ssenarilər hazırlasa da, bu planlar müəyyən səbəblər üzündən "məntiqi sonluq"la bitməmişdir. Çünki, teokratik İran topmlumunda "kafir" ABŞ-a qarşı total düşmənçilik abu-havası hökm sürür və düşmənə qarşı milli birlik formalaşmışdır.

Ədalət naminə qeyd etmək lazımdır ki, Ağ rəhbərliyinin sözügedən qərarı ABŞ-ın özündə etirazla qarşılandı. Dünyanın qabaqcıl İnformasiya vasitələri ilə yanaşı Avropanın aparıcı dövlət başçıları da Trampın bu qərarını pisləyir və belə bir addımın müsəlmanlara qarşı atıldığını qeyd edirlər. Çünki, ABŞ öz payına düşən qaçqınlardan imtina etməklə avropalı müttəfiqlərini əlavə yükün altina sürükləyir. Bundan başqa, Tehranla nüvə proqramı çərçivəsində razılıq əldə edildikdən sonra İran üzərindən emqarqoların qismən götürülməsi bu ölkənin iqtisadi inkişafına səbəb olmuşdur. Trampın sərəncamından Fransa, Almaniya kimi İranın iqdisadi partnyorları zərərli çıxacaqdır. ABŞ, eyni zamanda, avropalı müttəfiqləri üzərində də təzyiqləri artırmaq niyyətindədir. İran cəmiyyətində Qərb dünyasına olan kin tendensiyaları artmaqda davam edəcəkdir.

**Müsəlmanlarla bağlı Trampın utancverici qərarı son dövrdə dinlər və millətlərarsı inteqrasiyaya vurulan ən böyük zərbə kimi yadda qalacaqdır. Terrorun dini, milli mənsubiyyəti yoxdur. Terrordan sığortalanmaq üçün bir neçə dövlətə qapıları bağlamaq çıxış yolu deyil, cənab Tramp!**

# AVROPANIN ƏN KASIB ÖLKƏLƏRİNİN ADLARI AÇIQLANDI

Avropa Birliyində ən aşağı əmək haqqı Bolqarıstan və Rumıniyadadır.

Bu barədə məlumatı Avropa Statistika Agentliyi yayıb.

Bolqarıstanda ən aşağı əmək haqqı 235 avro, Rumıniyada isə 275 avro olub. AB-də ən aşağı əmək haqqının yüksək olduğu ölkələr sırasına Lüksemburq, Belçika, Almaniya, İrlandiya və Niderland daxildir. Bu ölkələrdə ən aşağı əmək haqqı 1500-2000 avro arasında dəyişir. 2008-ci illə müqayisədə minimal əmək haqqı Yunanıstandan başqa bütün AB ölkələrində artıb. Avstriya, Danimarka, İtaliya, Kipr, Finlandiya və İsveç kimi ölkələrdə isə, ən aşağı əmək haqqı anlayışı yoxdur.

AB-də ən çox qidaya pul sərf edən rumınlardır. Onlar aylıq gəlirlərinin 28%-ni qidaya xərcləyirlər. İçki və siqaretə daha çox estonlar pul verirlər. Onlar əmək haqlarının 8,8%-ni buna xərcləyirlər.

Kafe və restorandan istifadə sahəsində də rumınlar sonuncu yeri tuturlar. AB-dən ən çox kafe və restorandan ispanlar istifadə edirlər. Onlar əmək haqlarının 15%-ni bu sahəyə xərcləyirlər.

# ABŞ İRANA QARŞI HƏRBI ALYANS YARADIR

Tramp administrasiyası özünün ərəb müttəfiqləri ilə hərbi alyans yaratmaq barədə danışıqlar aparır.

"Vol Strit Jurnal" xəbər verir ki, yeni alyansın İrana qarşı yaradılması nəzərdə tutulub. Vaşinqton alyansda hələlik Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Misir və İordaniyanı görmək istəyir. Sonradan buraya digər ərəb ölkələri də qatıla bilərlər. Yeni yaradılacaq alyans NATO-ya bənzəyəcək. Burada da üzvlərdən birinə hücum hamıya hücum kimi dəyərləndiriləcək.

# TÜRKİYƏ ANTARKTİDADA YENİ BAZA YARADIR



Prezident Rəcəb Tayyib Ərdoğanın irəli sürüdüyü layihə çərçivəsində ölkənin TÜBİTAK və İstanbul Texniki Universiteti kimi elm mərkəzlərinin əməkdaşları Antarktidaya göndəriləcəklər.

Birinci mərhələdə 2 milyon 800 min dollar ayrılan layihənin həyata keçirilməsi üçün buzqıran gəmilər axtarılır. Prezident bu işlərin həyata keçirilməsini Elm, Sənaye və Texnologiya Nazirliyinə həvalə edib.

Baza qurmaq üçün qitəyə gedəcək heyətin tərkibində biologiya, mühəndis, fizik, dəniz elmləri, geofiziki sahələrinin mütəxəssisləri olacaq.

Antaraktidada qış aylarında temperaturun mənfi 80 dərəcəyədək yüksəldiyindən elm adamlarının 2017-ci il noyabrın 5-dən 2018-ci il fevralın 15-dək ərazidə işləmələri nəzərdə tutulur.

# NORVEÇDƏ DAHA AĞAC KƏSMƏK MÜMKÜN OLMAYACAQ

Dünyada bir çox məhsulların istehsalı birbaşa və ya dolayı yolla tropik meşələrin qırılması ilə bağlıdır. Argentina, Boliviya, Braziliya, Paraqvay, İndoneziya, Malayziya və Papua-Yeni Qvineyanın tropik meşələri xüsusilə acınacaqlı durumdadır.

Norveç hökuməti daha meşələrin kəsilməsi ilə bağlı olan məhsulları almayacaq, tropik meşələri məhv edən istənilən şirkətlə dövlət müqavilələri bağlamayacaq.

Son bir neçə il ərzində bir sıra şirkətlər bu cür məhsulları almağı dayandırıblar, lakin indiyədək hökumət öz üzərinə bu cür öhdəliklər götürməmişdi.

Artıq arzulananlar baş verib. Norveç, istehsalı üçün tropik meşələrin məhv edilməsi lazım gələn məhsullardan imtina edən ilk ölkədir. Bütün planetin meşələrini qorumaq üçün indi dövlət satınalmalarına ciddi şəkildə diqqət yetiriləcək.



Norveç Fondu digər ölkələri, xüsusilə Böyük Britaniya və Almaniyanı da bu cür hərəkət etməyə çağırıb.

Meşələrin qorunması istənilən xalq üçün vacib məsələdir. Bu, kiçik addım olsa da, doğru istiqamətə atılmış addımdır.

# RUSİYADA ƏHALİYƏ ƏRZAQ KARTOÇKALARI VERİLƏCƏK

Rusiyanın sənaye və ticarət, maliyyə nazirlikləri 2017-ci ildə ölkədə əhaliyə ərzaq yardımı proqramının fəaliyyətə başlayacağı barədə məlumat yayıblar. Bu barədə fevralın 7-də sənaye və ticarət naziri Denis Manturov məlumat verib.

O, bu proqrama cari ildə start verməyə çalışdıqlarını vurğulayıb. Onun sözlərinə görə, ərzaq kartoçkalarının tətbiqi bir çox mallar, məsələn, təzə ət, balıq və tərəvəz ala bilməyən müəyyən kateqoriya vətəndaşlara yardım etməyə imkan verəcək.

Nazir qeyd edib ki, pullar yardım alması nəzərdə tutulan vətəndaşların hesablarına yığılmayacaq. Bu pulları yalnız yerli məhsulların alınmasına xərcləmək mümkün olacaq.

Ərzaq kartoçkalarının buraxılması barədə 2015-ci ilin fevralında məlumat verilmişdi. O vaxtdan proqramın gerçəkləşdirilməsi büdcə vəsaitlərinin çatışmazlığı ucbatından bir neçə dəfə ertələnib.

Sənaye və ticarət nazirinin müavini Viktor Yevtuxov isə ərzaq talonlarının pilot rejimində 2018-ci ildən tez tətbiq olunmayacağını bildirib.

Müvafiq proqram ABŞ-da 50 ildir fəaliyyət göstərir. Vətəndaşlara ayda orta hesabla 130 dollar məbləğində Food Stamp adlı ərzaq talonları verilir.

# UĞUR QAZANMAQ BARƏDƏ BİR NEÇƏ SÖZ



Anaxanım VÜQAR

**Uğur həyatımızı mənalı qılan ən önəmli faktorlardan biridir. O, məqsədi bilmək və məqsədə çatmaq üçün bütün qabiliyyətləri səfərbər etməklə əldə edilir. Hər hansı bir nailiyyətə müvəffəq olmaq üçün məqsədi , nə üçün və nəyə qarşı mübarizə apardığımızı bilmək zəruridir. Məqsədini bilmədən, təsadüfi gələn uğurları itirmək, ən azı onu qazanmaq kimi asan və təsadüfidir. Zənnimcə, uğur əldə etmək üçün düzgün planlaşdırma, ağıl, bacarıq, əmək və bəzi hallarda isə təsadüf lazımdır. İnsan müxtəlif sahələrdə nailiyyət əldə edə bilər. Elm aləmində yenilik gətirmək , gündəlik həyatımızda hər hansı bir şeyi asandlaşdıracaq ixtira, iş həyatında, təhsil həyatında nailiyyət uğurun növləridir. Qısacası uğur şəxsin qazandığı bacarıqlar və mənəvi cəhətdən yetişmək ilə əlaqədar olaraq göstərdiyi zehni, ya da təcrübi fəaliyyətlərin məhsuludur.**

Uğurun həyatımıza gəlişi özü ilə bir çox hallarda pul, yaxın insanlar gətirir. Bir sözlə uğur insanı olduğu pillədən alıb istədiyi, arzu etdiyi pilləyə çatdırmanın başqa adıdır. Qeyd etdiyim kimi, uğur növlərinə görə fərqlidir. Dərs zamanı ən yüksək qiymət almış şagird uğur qazanmış , əməyinin qiymətinə sevinmişdir. Zənnimcə, bu zaman o, artıq nailiyyətin dadını hiss etmiş olur. Uğur əldə etmək onun psixologiyasında müsbət emosiya kimi qalır. Sırf bundan sonra növbəti dərsdə də uğur qazanmaq məqsədi ilə çalışır. Bu misaldan göründüyü kimi uğurlu gələcəyin yetişdirilməsində müəllimlərin böyük rolu vardır. Nəinki müəllimlər, bütün məktəb uğurlu gəncliyin yaradılmasında böyük rol oynayır. Təəssüflər olsun ki, bitirdiyim məktəb ( Kosalı ictimai məktəbi) rayonda ən çox şagirdə malik olmasına baxmayaraq, uzun illərdir məktəbi fərqlənmə ilə bitirən şagirdi yoxdur ki, yoxdur. Zənnimcə, bir müəllimin uzun müddət 10-a layiq şagirdinin olmaması halında məsuliyyət şagirdin deyil, müəllimin üzərinə yönəlməlidir.

Bir çox hallarda uğura can atmağı bəsitləşdirərək "gözü dönmək" adını verirlər. Məncə, insanın məqsədi yolunda mübarizə aparmasına bu cür adın verilməsi qəbul olunmazdır. Bir çoxumuz uğur qazanmaq yerinə həyatı adi şəkildə yaşamağı seçirik. Bir neçə cəhddən sonra asanca imtina edib, uğur qazananlara qibtə ilə baxırıq. Son zamanlarda müasir gənclər nəinki, uğur qazanmağa cəhd etmir, nailiyyət əldə etmək haqqında düşünməyə belə ərinirlər. Əsasən gənclərimizin böyük əksəriyyətinin maraq dairəsini kafelərdə qəlyan tüstülətmək, siqaret çəkməyin yolları, növbəti toya geyinəcəyi paltar, gedəcəyi gözəllik salonu əhatə edir.

Uğur əldə etmək bir çox hallarda həyatını dəyişdirəcək qədər pulun əldə olunması kimi başa düşülür. Bir çox hallarda insanlar onlara çoxlu pulun lazım olmadığını, sadə həyatı sevdiklərini deyirlər. Fikrimcə, bu sadə insanın deyil, tənbəl insanın fikrinin məhsuludur. Əgər bu gün mən qalxıb, cəmiyyət içində "mən milyonçu olmaq istəyirəm" desəm çoxlarının təsəvvüründə "pulgir" obrazı yaratmış olacam. Bir halda ki, hazırki dövrdə sağlamlığımızdan tutmuş təhsilimizə qədər hər şeyi pul həll edir, pula niyə əcaib varlıq kimi baxmalıyıq? Onore de Balzak demişdir: Milyon axtaran insan onu çox nadir hallarda tapır, amma axtarmayan insan onu heç vaxt tapmır. Uğur əldə etmək üçün savadlı, diplomlu və iş sahibi olmaq gərək deyil. Dünyada çox bəsit ixtiraları ilə uğur əldə etmiş insanlar kifayət qədərdir. Çoxumuzun yaxşı tanıdığı Angry birds oyununun yaradıcısı Piter Visterbakın bu bəsit və sərmayəsiz yaranan internet oyununa görə artıq qazancı 64 milyon avrodur. Dr. Spence Silver tərəfindən düşünülən post-it note (arxasında yapışqanı olan sarı qeyd kağızları) ən çox satılan ofis ləvazimatına çevrilmiş və fikir sahibini milyonçu etmişdir.

**Zənnimcə, uğurun yalnız sahibinə deyil, sahibinin gələcək nəslinə də qatqısı vardır. Hal-hazırda ətrafımızda xarici ölkələrdə təbii ki, təhsil almağa layiq gənclərimiz var. Təəssüflər olsun ki, maddiyat bu mövzuda qarşımıza çəpər çəkir. Yəni belə başa düşmək olar ki, əvvəlki nəslin uğuru gələcək nəslin şəratinə bu və ya digər dərəcədə təsir edir. Düşünürəm ki, uğur qazanmaq üçün ağıllı və düşünülmüş addımlar atılmalıdır. Ən xırda məsələləri belə diqqətlə araşdırımaq və üzərində diqqəti cəmləmək lazımdır. Başqa uğurlu insanların etdiklərini eynilə təkrarlasaq eyni nəticəyə vara bilməmək mümkün haldır. Əgər yerimizdə addımlasaq, "pul əl kiridir" təfəkküründən uzun müddət ayılmasaq və pula əcaib varlıq kimi baxmağa davam etsək, düşünürəm ki, uğurlu insanlara elə sonuna qədər qibtə etməyə davam edəcəyik.**

# ŞEYTANI AĞLATMAQ

***(introspeksiya)***



İBRAHİMXƏLİL

**Həyatımız körpəlikdən ağlamaqla başlamırmı? Bəlkə də "ağlamayana məmə yoxdur" ifadəsindən indinin özündə də heç cür yaxa qurtara bilməməyimizin bir südəmər səbəbi də kimliyimizi təyin edən keyfiyyətlərdən artıq "məmə"ni əhd-cəhd ilə əzbərləməyə davam etməyimizdədir. Kim bilir...**

Baxa-baxa çaş-baş qalırsan: Donald Tramp Bağdad üçün ağlayır, Bəşər Əsəd "iblisə uymuş bəşəriyyət" (ifadə H.Cavidindir) üçün ağlayır, Mirzə Filan Filcümlə isə Qasım bəy Zakirin "gecə-gündüz canan deyib ağlaram" məsum-məhbub misrası da dilində fiqurlu-fasonlu Firuzə xanım üçün ağlayır.

Bu divanə dünyada günəş üçün ağlayan uşaqdan tutmuş, yağış üçün ağlayan aşiqə qədər görmədikmi?

Mirzə Səfər (Əbdürrəhim bəyə Allahın rəhmətini diləyirəm) danışırdı ki, evin böyük gəlininə deyirəm ki, bala, körpən diqqət istəyir, kirit, yazıqdır ağlamasın. Kimə deyirsən? Hələ gün günorta yerinə gəlməyib, amma anası artıq dördüncü dəfədir zəng eləyir. Yəqin səhərə yaxın gördüyü unudulmaz eniş-yoxuş yuxunu danışır. Bu yerdə ən qardaşqanı qayınatanın səbri belə, bu çətin müsibəti asanmı edə bilər? Mirzə Səfər məcbur olub evin böyük gəlininə pürmənа Pifaqorun sözlərini yağdırmalı olur: – Bala, öz balanın göz yaşlarını qoru ki, günlərin bir günü sənin qəbrin üstündə də ağlaya bilsin...

Mirzə Səfəri qınamıram: Əyriqarın ətəklərinə yaxın yaşamasına rəğmən, dəmirəsəb dağlara oxşamadı, yoxsa nə vardı səbrini basmağa!

Dünən Süsən-Sünbül yolunda həm də "Şeytanşapalağı" ləqəbi ilə tanınan Mirzə Cavadı (C.Cabbarlının qəhrəmanı ilə ad eyniliyi zərurət yox, adi təsadüfdür) gördüm. Elə ağlayırdı, elə ağlayırdı, sanki iraq-iraq, şəhri-Tiflis köçür! Kiritməkmi olur? Fikirləşdim ki, yəqin sonuncu aktyoru dünən köçüb Tiflis bazarlarının birinə gedən T.T. üçün, ya da təmirə ehtiyacı olan ufaq-tufaq kənd məktəbi üçün ağlayır. Kirimədiyini görüb Mirzə Halaypozanın onun haqqında yazdığı "tarixi-miladi tarixçə"ni çıxarıb göstərdim. Kirəc-kirəmit kiridi. Belə yanıqlı-yanıqlı ağlamağının səbəbini soruşdum.

O necə deyərlər, sən saydığını say...

Sən demə, Mirzə Cavadın dərdi nə teatr, nə də məktəb dərdi imiş. Sadəcə olaraq, eşidib ki, ağlamaq – stres hormonlarını orqanizmdən xaric etməyin ən əlverişli üsuludur; ona görə ağlayır. Elə bilir onun beyni emosiyalarını ağlamaqla formalaşdıracaq... Ey dad-bidad!

Amma, ay bəni-adəm, belə isə get evində üzüqoylu düş, nə qədər istəyirsən ağla, daha niyə Süsən-Sünbül yolunda saçını yolursan?

...deyilənə görə, Utopiyalar ölkəsində yoxsulundan padşahına qədər hamı ağlayır. Yoxsa onlar da sağlamlıqlarının qeydinə bu yollamı qalırlar? Axı bu qədər də manipulyasiya olmaz!

Görünür, eynən kamillik misallı, gərək naqislik də xüsusiyyət olaraq tam təzahür edə ki, hətta göz yaşının da Allaha görə olub-olmadığını anlayasan.

Sınıq körpünün bəri üzündə, Arazdan bu qədər uzaqlarda Mirzə Səfər iddia edir ki, Araz çayının bir bu qədər arazbarı olma səbəbi də üzüqoylu ağlamağındanmış... Etiraf edim ki, bilmirəm.

P.S.

Başqaları haqqında "onun anasını ağladaram" ifadəsini işlədirik, nədənsə "onun şeytanını ağladaram" demirik. Bu fitnəkar çuğulun, şəri təmsil edənin, araqarışdıranın dərsi vaxtında verilmir...

Müxtəsəri, qardaşım, adam adamı, vilayət vilayəti, bülbül gülü ağlatmamalıdır! Adam gərək adamın namərdliyini, naqisliyini görüb sevinən, gülüb şaqqanaq çəkən şeytanı ağlada! Çünki şeytan əməlisaleh görəndə ağlayır, ədalət, əmin-amanlıq görəndə ağlayır: beynamazdır axı!

**Sənin bircə ağlayanı kiridib, bircə göz yaşını sildiyini görəndə... hətta Şuşada da yuxusu ərşə çəkilir. Nafəhm nəbzini tuta-tuta çıxıb gedir...**

# BƏZİ QADIN MƏHBUSLARIN İSTİRAHƏT GÜNLƏRİ HƏBSXANANI TƏRK ETMƏK HÜQUQU OLACAQ

Azyaşlı uşaqları həbs müəssisəsini tərk edən məhbus qadınların bir il ərzində istirahət günləri cəzaçəkmə müəssisələrindən çıxmaq hüququ olacaq.

Bu hökumətin parlamentin müzakirəsinə təqdim etdiyi "Həbs haqqında Məcəllə"də planlaşdırılan dəyişikliklərdə nəzərdə tutlur. Layihənin müəllifi Gürcüstanın Cəzaçəkmə və Probasiya Nazirliyidir.

Məcəllədə ana və uşağın 3 yaşınadək birgə yaşaması nəzərdə tutulur. 3 yaşdan sonra uşaqlar ətraf aləmə uyğunlaşmaq üçün həbsxananı tərk edirlər və anasından ayırıldığı zaman uşağın alacağı zədələri minimuma endirmək üçün məhbus qadınlara münasibətdə dəyişikliklər həyata keçirmək gərəklidir.

Dəyişikliklərə əsasən, uşağı 3 yaşına çatdığından cəzaçəkmə müəssisəsini tərk etmək məcburiyyətində qalan ana, penitensiar departamentin direktorunun qərarı ilə uşaq müəssisəni tərk etdiyi gündən istirahət günləri həbsxananı tərk etmək hüququ qazanır.

Qərar qəbul edilərkən, məhbusun cəmiyyət üçün təhlükəli olub, olmaması, şəxsi keyfiyyəti, kriminal keçmişi, etdiyi cinayətin xarakteri, motivi, məqsədi, cəzaçəkmə zamanı davranışı və sair nəzərə alınacaq.



# BİRİ YOX İDİ, BİRİ DƏ HEÇ YOX

Afayət AFİQ

**Bu günlərdə təhsil naziri Aleksandre Cecelava açıqlamalarının birində dərsliklərə salınan mövzulardan şikayətlənmişdi. Nazir cənablarının şikayətinin əsas hədəfi isə kitablardakı nağıllar idi. Bəli-bəli yanlış oxumadınız, gözləriniz sizi aldatmadı. Dədə-babadan bildiyimiz nağıllar və onların dədə-baba sujetləri şikayətin, tənqidin başlıca səbəblərindən idi. Əminəm ki, deyəcəksiniz: "Bircə bu kəm idi", "Ayrı dərdimiz yox idi", "Hər işimiz düz idi, bircə nağılımız kəsir qalmışdı". Bu və bu qəbildən olan bir sıra rəylərinizi eşidər kimi oldum və qulaqlarımı cingildətdiyinizi nəzərlərinizə ərz edirəm.**

Ancaq və lakin, bir az düşündükdə nazirin bunu heç də gəlişi gözəl söz, ya da fərqli görünmək xatirinə etmədiyini yəqin etdim. Düşünüb bir az uzaqlara, bir az dərinlərə getməyə qərar verdim. Nağılların sujetindəki qəbuledilməz və ya daha yüngül şəkildə qeyd etməli olsaq, arzuedilməz məqam, onların əsrlər boyu eyni şeyi diqtə etməsi, zamanın, insanların dəyişməsinə, dünyanın yeri gəldikdə baş-ayaq olmasına baxmayaraq, nağılların eyni qaravəlliyi danışmasıdır. Heç şübhəsiz ki, folklorun universal sujetli nümunələrindən biri olan, dünyanın bütün xalqlarının ortaq düşüncə məhsulu olan nağılların deformasiyaya uğradılmasını heç kəs arzulamaz. Ən azından ol səbəbdən ki, bu incə əyrilib, sıx toxunmuş corabın bir ilməsini sökməyə bənzəyər. Etiraz edilən məsələ nağılların məktəb dərsliklərində yer alması və bu yolla yeni nəslin psixoloji vəziyyətinə bu və ya digər şəkildə təsir göstərməsidir. Bu halda, heç şübhəsiz ki, sözü gedən təsir müsbət deyil. Təsirlərin formalaşdırdığı beyinlərin zamana ayaq uydura bilməməsi sətir altında vurğu etdiyimiz problemin özüdür ki, var. Təhsil naziri uşaqlara yanlış reallıqlar təlqin edilməsinin əlehinədir ki, mən də bu anda onunla razılaşmaya bilmirəm. İncə bir anı qeyd etməliyik. Bu elə mənim razılaşma anımın özüdür ki, var. Qız uşaqlarının yanlış psixologiya ilə yetişdirilməsinə, böyüdülməsinə səbəb olan şey, onların müstəqillikdən, öz güclərinə və imkanlarına arxalanmaqdan məhrum edilməsidir. Heç kimə gizlin deyil ki, uşaqlar, qız və ya oğlan olmasından asılı olmayaraq nağıllarda, filmlərdə, cizgi filmlərində gördükləri qəhrəmanları ideallaşdırıb, onlar kimi olmaq arzusu ilə yaşayırlar. Bu da istər-istəməz uşaqların düşüncə və xəyal gücünə xeyli dərəcədə təsir göstərir. Qızların ideala çevirdiyi şahzadə xanımlar ağ atlı şahzadələr tərəfindən xilas edilməyi, çətinlikdən qurtulmağı və ya hər hansı arzularına qovuşmağı gözləyirlər. Bu da onların özündəki mübarizə hissini, həyatlarını özlərinin qurmaları, özlərinin qərar vermələri üçün çabalamalarını əngəlləyir. Yavaş-yavaş da olsa, çox cüzi görünən bu amilin uşaqların beyninə təsir göstərməsini yəqin ki, hamımız qəbul edəcək, etirazımızı bildirməyəcəyik. Çünki, nağıl söhbətimin açılış mərasimi və ya bəhanəsi olsa da, eyni təsirlər bir az fərqli yönlərdən də özünü göstərdiyini fərq edə bilərik. Belə ki, azca nəzər salsaq müasir dünyadakı bütün yeniliklər, televiziya, internet, yaşam tərzi həm müsbət, həm də mənfi olmaqla eyni təsiri müxtəlif formalarda göstərir, zəhərlərini damarlara yeridirlər. Bəzən o həddə çatır ki, insanlar bunun fərqində belə olmurlar. Bəli, bu yazıda biz işin ən məsumundan nağılların boynundan yapışdıq. Çünki, insanlarda, daha doğrusu gələcəyin insanlarında - bu günün uşaqlarında doğru ilə xəyalı ayırd etmək, onlar arasında sərhəd qoymaq kimi bir problem var. Elə buna görə də uşaqlar reallığı filmlərdə, nağıllarda gördükləri kimi qəbul edirlər. Doğrudur, uşaqlar göydən almanın düşməyəcəyinə əmin olduqları zaman onların böyüdüyünü düşünürük, hətta onlar da böyüdüklərini, uşaqlıqdan qurtulduqlarını fikirləşirlər. Ancaq, həyat insanın hər yaşı üçün ayrı bir nağıl hazırlamaqda mahir ustadır və bunu hər an, hər zaman davam etdirir. İnsanı istənilən yaşda aldadıb, tora sala biləcək, göydən alma düşəcəyinə inandıra biləcək, xeyirin burda, şərin orda olacağını söyləmək iqtidarında olan sonsuz sayda nağıllar mövcuddur. Ömür də sonuna qədər elə bu cür davam etməkdə, biri var olanda, biri yox olmaqdadır. Bəzən tam olaraq belə olur, göydən düşən almaları nağıl sahibindən başqa hər kəs dadır. Hər kəs yeyir... Bəzən çoxlu aş yeyirsən, ancaq nə barmağın bulaşır, nə qarnın doyur... Beləliklə, biri nağılımızdan yox idi, biri də həyatımızdan yox olur...

**P.s Danışmaq üçün bəhanə etdiyim, şikayətin bir səbəbi də gender bərabərliyi idi. Bu mövzuda isə gələn sayımızda...**

# KİTABXANA ARZUSUNDA OLAN GƏNCLİK

Peyğəmbərimiz buyurub: "Elmi beşiktən qəbrədək öyrənin". Lakin oxumaq üçün bəzən istək olmur, istək olanda da şərait olmur və bunun kimi digər səbəblər... Gənclərimizin daha da maariflənməsi üçün , müxtəlif şəraitlər yaratmaq labüddür. Bu şəraitlərdən biri də kitabxanalardır. Mən bir gənc kimi təəssüflə bildirirəm ki, mənim yaşadığım rayonda kitabxana yoxdur. Nəinki mənim, o cümlədən Qardabani rayonunda yaşayan bir çox gəncin xəyalıdır ki, günü-gündən oxuduğu kitabların sayını artırsın. Bəzilərimiz bunu əldə edir, başqa yerlərdən kitablar alır, lakin buna hər kəsin imkanı çatmır. İstəyərdim ki, kitaba olan tələbatımızı ödəmək üçün Qardabanidə də bir kitabxana açılsın. Arzusunda olanlar asan şəkildə istədikləri kitabları əldə etsinlər.



Hazırda tez-tez böyüklərimizin tənqidləriylə üzləşirik. Belə ki, onlar televiziya, kompyuter, telefon kimi vasitələrdən tez-tez istifadə etdiyimiz üçün bizi qınayırlar. Ən çox eşitdiyimiz cümlələrdən biri də: " Ay bala, əlinizə bir kitab alıb oxusanız" və ya buna bənzər fikirlərdir. Ancaq bir deyən yoxdur ki, hansı kitabı? Evdəki kitabları neçə dəfə oxumaq olar. Yaxud , ay bunu tələb edən valideyn, uşağına hansı kitabı almısan ki, indi də tələb edirsən? Başqalarından da nə qədər kitab istəmək olar.

Bundan əlavə, kitab əvəzinə gənclərmizin seriallara maraqları daha çoxdur, serialdakı qəhrəmanları özlərinə nümunə götürürlər. Bu da boşluqdan irəli gəlir. Misal üçün, qızlarımız oradakı kimi, toy geyimlərinə ,toy səhnələrinə meyl edirlər və bu da qızların tez ailə qurmalarına səbəb olur və beleliklə bu da nəsillərmizin savadsızlaşmasına gətirib çıxarır, gənclərmizin dünyagörüşləri məhdudlaşır . Mən bunun da bir ucunu kitab azlığına, kitabxanaların olmamasına bağlayıram. Belə ki, gənclərmizin əlində kitablarla daha sıx-sıx rastlaşmaq üçün kitabxananın mövcudluğu şərtdir.

İnanıram ki, dediklərimi nəzərə alanlar, səsimi duyanlar olacaq.

Aytac LƏZGİYEVA

# MARNEULİDƏ YENİ KİTABXANANIN NÖVBƏTİ TƏQDIMATI KEÇİRİLİB

Fevralın 3 də Marneulinin Demokratik Məşğulluq Mərkəzi və İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhərin mərkəzi kitabxanası barədə növbəti təqdimat keçirildi.



İctimai müzakirədə Marneuli Bələdiyyəsinin icra başçısı Merab Topçişvili, icra başçısının birinci müavini Zaur Tabatadze, icra hakimiyyətinin xidmət rəhbərləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, tələbələr, məktəb şagirdləri və digər maraqlanan şəxslər iştirak edirdilər.

Görüşü keçirməkdə məqsəd kitabxananın quruluşu ilə bağlı davam etdirilən işlər, kitabxanada təqdim olunacaq xidmətlər barədə gənclərə məlumat vermək, onların fikirlərini və məsləhətlərini dinləyib nəzərə almaq idi.

Görüşdə gənclərin bu sahə ilə daha dərindən maraqlanması məsələsinə və onların təşəbbüslər irəli sürməsinə də diqqət ayrıldı.

Qeyd edək ki, görüşün ikinci hissəsi sual-cavab formatında keçirildi.

Turac İBRAHİMOVA

# BƏDƏN TƏRBİYƏSİ MÜƏLLİMLƏRİNİN TƏKMİLLƏŞDİRƏLMƏSİ HƏYATA KEÇİRİLƏCƏK

Fevralın 7-də Gürcüstanın təhsil və elm naziri Aleksandr Cecelava bütün məktəblərdə bədən tərbiyəsi müəllimlərinin yenidən təkmilləşdirilmədən keçəcəyi barədə fikir söyləyib.

O, bu prosesin reqbi, futbol, voleybol və həndibol idman federasiyaları ilə əməkdaşlıq şəraitində keçiriləcəyini vurğulayıb.

Nazir bədən tərbiyəsi müəllimlərinin təkmilləşdirilməsinin bir ay sonra başlayacağı barədə məlumat verib.

Hal-hazırda məktəblərdə bədən tərbiyəsi dərslərinə həftədə iki saat verilir.

Nazir yeddinci və səkkizinci siniflərə iki saat "azad dərslər"in əlavə olunacağını bildirib.

Cecelava, müxtəlif tədqiqatlara əsasən Gürcüstanda cəmi 2-7% şagirdin müntəzəm fiziki fəallıqla məşğul olduğunu qeyd edərək, bunu faciə adlandırıb.

Onun sözlərinə görə, şagirdlərin kütləvi şəkildə idman məşğələlərinə cəlb olunmasını təmin etmək üçün məktəb direktorlarına əlavə göstəriş veriləcək.




# 14 FEVRAL

## SEVGİ YOX, TARİXİ KÜTLƏVİ ƏXLAQSIZLIQ GÜNÜDÜR

Məlumdur ki, hər il fevral ayı gələndə cəmiyyətdə canlanma olur. Kimi 14 fevral deyilən o günə hazırlaşır, kimi də o günə hazırlaşanları təəssüf və qınaq atəşinə tutur. Düzdür, ikincilər üstünlük təşkil etsə də, müəyyən qism kütlə var ki, fikir və düşüncələri tam formalaşmamış gənc və yeniyetmələrin ağlını qarışdırır.

Fevralın ilk ongünlüyündən başlayaraq hədiyyə mağazalarında nəzərə çarpan canlanma 14 fevraladək davam edir. Daha çox gənclərin qeyd etdiyi 14 fevral tarixi yaşlı nəsili o qədər də maraqlandırmır. Maraqlıdır, görəsən gənclərin belə həvəslə hazırlaşdıqları 14 fevral haqqında kim nə bilir?

Bununla bağlı "Sağlam Toplum" İctimai Birliyinin əməkdaşları Bakı küçələrində sorğu keçiriblər. Əksəriyyət bu günün tarixi barədə heç nə bilmir, bəziləri də tarix boyu xristianların uydurulmuş nağıllarını danışırlar...

"Valentin günü" 14 fevralda qeyd edilir. Dünya ölkələrində, bu günün həvəskarlarının bir-biri üçün hədiyyələr aldığı və kütləvi qeyd etdiyi faktları danılmazdır. Valentin gününün atributları da var, bunlar ürək şəkilləri və göyərçin fiqurudur. Bəs indi bir çox müsəlman ölkələrində, türk dünyasında belə qeyd edilən bu xristian gününün əhəmiyyəti nədir?

Katolik xristianların "Müqəddəs Valentin" dedikləri bu keşiş çox müəmmalı bir kimliyə sahibdir. Əslində 14 Fevralın sevgililər günü kimi qeyd edilməsi onun dövründən xeyli öncələrə, təxminən 1500 il əvvələ gedib çıxır, əski Roma ənənələrinə dayanır.

Qədim Romada 14 fevral tarixi bütün xalq üçün xüsusi əhəmiyyət kəsb edirdi. Həmin gün inanclarına görə, Roma "Tanrı" və "Tanrıçaları"nın kraliçası olan Junoya duyulan sayğıdan dolayı bayram elan olunurdu. Səhərisi gün isə Lupercalia bayramı başlayırdı. Bu bayram gənc kütlə üçün böyük "önəm" daşıyırdı.

Bu "önəm"in səbəbi isə həyatları qəti qanun-qaydalarla müəyyənləşdirilmiş və bunun da təbii nəticəsi olaraq gəzib-əylənmə şansı çox məhdud olan gənclərin bu bayramda bir-birləri ilə iyrənc şəkildə əylənmələri idi. Bu "bayram"da hansı gəncin hansı qızı seçməsi də öz istəklərinə bağlı deyildi. Romalı gənc qızlar adlarını kiçik kağız parçalarına yazaraq, bir çəlləyə atır, həmin kağızlardan birini seçən romalı gənc də seçdiyi kağızda adı yazılan qızla həmin gecə bir yataqda olaraq istənilən cinsi arzusunu həyata keçirməkdə sərbəst buraxılırdı və onlar bayram boyunca ayrılmırdılar. Dini nöqteyi-nəzərdən yanaşsaq, həmin gün minlərlə kişi və qadın Tanrını danaraq əxlaqsızlıqla məşğul olurdu. Yəni bir sözlə 14 Fevral tarixi kütləvi əxlaqsızlıq günüdür.

Bəs bu Valentin kimdir?

Burada belə bir sual meydana çıxır, əgər bu əxlaqsız hərəkətlər Valentindən öncəyə dayanırsa, o zaman Valentin niyə öldürülüb?

Valentini edam etdirən imperator II Kladius tarix qaynaqlarında bu hallara son qoymaq istəyən əxlaqlı imperator kimi xarakterizə olunub. Onun hətta ordunun güclənməsi və nizam-intizamın qorunması üçün orduda xidmət edən gənclərə müvəqqəti olaraq evlənməyi qadağan etdiyi də tarixi qaynaqlarda yer tapmaqdadır.

O zamanlar Valentin Romada rahib idi. Onun ölümü barədə müxtəlif fərziyyələr var. Bunlardan ən geniş yayılmış olanı və həqiqətə dayananı budur ki, həmin keşiş imperatorun qadağan etməsinə baxmayaraq, artıq keçmişdə qalmış o iyrənc adəti bərpa edib gizli şəkildə qızlarla oğlanları qeyri-qanuni olaraq görüşdürməkdə davam edirmiş, yəni əxlaqsızlığı yayırmış. İmperator da onun bu hərəkətlərindən xəbər tutaraq zindana atdırır və 14 fevralda - məhz romalıların əxlaqsızlığının tüğyan etdiyi bir gündə döydürərək, təhqiramiz formada öldürtdürür.

İndi insanlarda belə bir fikir formalaşdırıblar ki, guya Valentin həbsxana rəisinin qızına aşiq olubmuş, ona görə də edam edilib. Bu arada, katoliklər də iddia edir ki, Valentin xristianlığı təbliğ etdiyi üçün öldürülüb. Amma az öncə qeyd etdiyimiz kimi, tarixdəki daha etibarlı qaynaqlardan əldə etdiyimiz məlumatlara görə isə Valentinin imperator II Kladiusun əxlaqsızlığa qarşı dözümsüz münasibətinin layiqli qurbanı olub.

Sözügedən qeyri-əxlaqi davranışı aradan götürmək üçün həmin dövrdə kütləni yönləndirən şəxsi aradan götürmək kifayət idi ki, əxlaqsızlıq dayansın. II Kladius da bunu edir, 14 fevral tarixində Valentini təhqiramiz işgəncə ilə öldürtdürür.

Maraqlıdır ki, onun həbsxanadan öz yoldaşlarına, xüsusən də keşiş dostu Mariusa "Valentini unutma", "Səni sevirəm" deyə məktublar göndərməsi faktı da var. Bu fakt ümumiyyətlə, Valentinin hansısa bir qıza görə öldürüldüyü və yaxud da xristianlığı təbliğ etdiyinə görə edam edildiyi faktlarını şübhə altına alır və onun haqqında söylənən "homoseksualist" ifadəsinin doğruluq dərəcəsini artırır. Axı kişinin kişiyə "səni sevirəm" deməsinə "homoseksualist" sözündən başqa hansı adı vermək olar? Əgər olarsa, hansı adı?

Kimsə deyə bilər ki, Valentini də Tanrı yaradıb, yəni onun hemoseksual olması öz günahı deyil. Tutalım ki, belədir, o öz hisslərinə qalib gələ bilmir, bunu anlamaq olar. Amma o yalnız öz tərbiyəsini deyil, cəmiyyətin tərbiyyəsini pozmaqla məşğul olub. Yenə deyə bilərlər ki, bundan bizə nə?

Bax, məsələ də elə burasındadır! Bundan bizə nə? Yəni, bu əxlaqsızlar günündən, bu 14 fevral tarixindən bizə nə? Bəyəm biz əxlaqsızıq? Bəyəm biz xristianıq? Başqa vaxt "Əlhamdülillah, müsəlmanıq" deyib gur-gur guruldayan adamlar niyə qeyd edir bu xristian gününü? Hansı xristian müsəlmanların əlamətdar bir gününü qeyd edir?

Valentinin edamından sonra əxlaqsızlıq səngidi, amma tamamilə dayanmadı. Əvvəllər açıq-aşkarda keçirilən bu "bayram" indi künc-bucaqda gizli şəkildə davam etdirilirdi.

Əxlaqsızlıq gününün "Valentin günü"adı altında açıq-aşkar qeyd edilməsi isə onun ölümündən təxminən 226 il sonraya təsadüf edir. Yəni Papa Gelasius tərəfindən 496-cı ildə "Lupercalia" bayramının adı Valentinin şərəfinə dəyişdirilir.

Addəyişmənin səbəbinə gəlincə isə, xristian ruhanilər Romadakı bütpərəstlərin "Lupercalia" bayramına xristian gənclərin də qatıldığından və bütpərəst qızlarla əylənmələrindən narahat olduqlarından buna bir çarə axtarırdılar.

Elə bu zaman vaxtilə xristian qəbristanlığında dəfn olunan Valentin yada düşdü və ruhani xristianlar bununla vəziyyətdən çıxış yolu tapdılar. Onlar bu bayramın adını dəyişərək gənclərin xristianlığa bağlı adı olan bir şənlikdə, "Müqəddəs Valentin günü"ndə əylənmələrini, daha doğrusu ənənəvi kütləvi əxlaqsızlığı davam etdirmələrini təmin etdilər. Bir sözlə, Papa Gelasius əxlaqsızlığı rəsmiləşdirdi.

P.S. Məqalədə istifadə edilmiş qaynaqlar:

"Oxford University Press" qəzeti, 1997-ci il, 14 fevral

**"Centre Daily Times" qəzeti, 2009-cu il, 14 fevral**

**"New York Times" qəzeti, 1993-cü il, 14 fevral**

Lalə MEHRALI



Eltun MEHDİOĞLU

### BELƏ GETSƏ MƏN GƏLƏCƏM YANINA

**Sən gedəndən mənası yox ömrümün,
Dərd içində boğuluram, batıram.
Sən yox ikən yuxu getmir gözümə,
Şəkillərin qucaqlayıb yatıram.**

**Yoxa çıxıb gözlərimin gülüşü,
Yorulmuşam qayğıların içində.
Bilirəm ki, yox gedişin dönüşü,
Məhv oluram duyğuların içində.**

**Evimizdə yerin elə görünür,
Yoxsan deyə sükut çöküb hər yana.
Yoxluğuna dözmək elə çətindi,
Hara baxsam əzab verir, ay Ana.**

**Bircə dəfə yuxuma da gəlmirsən,
Demirsənki "görüm oğlum neynəyir?"
Sənsiz elə darıxmışam, ay Ana,
Yaralarım sızıldayır, göynəyir.**

**Belə getsə mən gələcəm yanına,
De ki, məni sıxacaqsan bağrına?
Qurban olum sənin ruhsuz canına,
Niyə çarə tapammadım ağrına?!**

### ŞÖHRƏTİM TÜRK, ŞANIM TÜRK!

**İtirmişik, rahatlığı dincliyi,
Ağrıların, zədələrin əlindən.
Azadlığa çıxmamışıq neçə il,
Qorxuların, hədələrin əlindən.**

**Tanrı verib canı bizə əmanət.
Qanımızda olub bizim,cəsarət,
Bircə dəfə edərmiyik şikayət,
Keçən günün, vədələrin əlindən?!**

**Türk oğluyam, damarımda qanım Türk,
Varlığım Türk, bu ruhum Türk, canım Türk,
Ucalığım, şöhrətim Türk, şanım Türk!
Əyilmərəm gədələrin əlindən!**

### İLAHİ, BU QIZI TALEYİMƏ YAZ

**Elə bil mələkdi, göylərdən enib,
"Belə baxış olmaz, belə göz olmaz."
Bir ömür edərəm könlümə sultan,
İlahi, bu qızı taleyimə yaz.**

**Necə saf görünür, bənzəyir gülə,
Adam sevgisindən az qalır ölə,
Bir ömür, yanımda sirdaşım eylə,
İlahi, bu qızı taleyimə yaz.**

**Olaram qurbanı bu gözün-qaşın,
Kədərlə gözümün axıtma yaşın,
Mən də atmalıyam subaylıq daşın,
İlahi, bu qızı taleyimə yaz.**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

15 fevral 2017-cı il
№003 (41)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## GÜRCÜSTAN-AZƏRBAYCAN MEDİA MƏRKƏZİ FƏALİYYƏTƏ BAŞLAYIB



Gürcüstanda Gürcüstan-Azərbaycan Media Mərkəzi fəaliyyətə başlayıb. Bir qrup azərbaycanlı gəncin təsis etdiyi mərkəzin rəhbəri tanınmış jurnalist, “Amerika-Azərbaycan Jurnalistika Akademiyası”nın məzunu, uzun illər ANS TV-də çalışan Amil Hacıyevdir. Gürcüstan-Azərbaycan Media Mərkəzi hər iki ölkə arasında media körpüsü funksiyasını daşıyacaq.

Jurnalistin verdiyi məlumata görə, Gürcüstan-Azərbaycan Media Mərkəzinin əsas məqsədi iki ölkə mediası arasında əməkdaşlıq, fikir, təcrübə mübadiləsi aparmaq, dostluq əlaqələri yaratmaqla hər iki dövlətin həqiqətlərini yaymaqdır. “Son zamanlar müşahidə etdim ki, Gürcüstanda iki dövlətin dostluq münasibətlərinə mane olan qüvvələr var. Bunlarla mübarizə üçün həqiqətləri yaymaq lazımdır. Gürcüstan haqqında, orada yaşayan soydaşlarımızın sosial problemlərini qabartmaq, media vasitəsilə onlara dəstək vermək istəyirik” – deyə Amil Hacıyev bildirib.

Onun sözlərinə görə, mərkəz həmçinin bir kommersiya təşkilatı kimi də fəaliyyət göstərəcək. Azərbaycandakı istənilən sayt, hətta televiziyalar bura gəlmədən müsahibə və tədbirlərin işıqlandırılması üçün Media Mərkəzə müraciət edə biləcək.

Hazırda Media Mərkəzin nəzdində xəbər portalının hazırlanması üzərində işlər aparılır.

Gürcüstan vətəndaşı olan Amil Hacıyev hazırda Kvemo Kartli televiziyasında həftədə 5 gün olmaqla, Azərbaycan dilində efirə gedən xəbərlər proqramının aparıcısıdır.

## TÜRK ALİM KAİNATIN 50 İLLİK SİRRİNİ ÇÖZDÜ

Harvard Universitetinin türkiyəli mütəxəssisi Bülənt Kızıltan astronomiya elminin 50 ildir ki, axtardığı elmi sirrin cavabını tapıb.

Türk alim orta kütləyə malik ilk qara dəliyi aşkarlayıb. Həddindən artıq böyük kütləyə malik olan “qara dəlik”lərin orta kütləyə malik “kiçik qardaşlar”larının varlığı elmə çoxdan məlum idi. Lakin 50 ildir ki, bu varlıq yalnız fərziyyə olaraq qalmışdı. Yalnız fevralın 9-da Bülənt Kızıltan uzun müddət davam edən araşdırmaları nəticəsində elmi kəşfə imza ataraq, adını astronomiya tarixinə yazdıra bilib.

Sirri çözülən orta ölçülü qara dəliyin Günəşdən 2200 dəfə böyük olduğu da təsdiqlənib.



## ƏN TƏHLÜKƏLİ QAN QRUPU MÜƏYYƏNLƏŞDİRİLDİ



Amerikanın Milli Sağlamlıq İnstitutu və ABŞ Səhiyyə Departamentinin ekspertlərinin üçillik araşdırmaları nəticəsində qan qrupları və tez-tez insanlarda konkret səbəb olmadan meydana çıxan müyyən xəstəliklər arasında qarşılıqlı əlaqə olduğu təsdiqlənib. Araşdırmanın gedişində 30 mindən çox könüllünün sağlamlığı barədə məlumatlar araşdırılıb.

Ən təhlükəli qan qrupu dördüncü (AB) hesab olunub. Bu qrupun daşıyıcısı olan 495 nəfərdə yaddaş və düşüncə ilə bağlı problemlər aşkarlanıb, bu isə əqli tənəzzülün ilkin mərhələsi hesab olunur. Alimlər dördüncü qrup qan daşıyıcılarında intellekt pozulmalarının inkişafı riskinin 82%-dən çox olduğunu qeyd edirlər. Ekspertlər bu faktı dördüncü qan qrupunda qanın laxtalanmasını sürətləndirən zülalın səviyyəsinin yüksək olması ilə izah edirlər. Bunun nəticəsində də qan dövranı sistemində tromb əmələ gəlməsi və damarların keçiricilik qabiliyyətinin pisləşməsi ehtimalı yüksəlir.

Vermont universiteti əməkdaşlarının təsdiqlədiyinə görə, ən təhlükəsiz qan qrupu birincidir (0). Bu qan qrupuna malik olan insanlar demək olar ki, ürək-damar xəstəliyi riskindən uzaqdırlar, habelə əqli çatışmazlıqdan yaxşı qorunurlar.

## TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNİN 99 YAŞI TAMAM OLDU



Qafqazın ilk milli universiteti 1918-ci il fevralın 8-də (köhnə stillə yanvarın 26-da) gürcü çarı Qurucu Davidin anım günündə açılıb. 1989-cu ildən universitet onun əsasını qoyan tarixçi-akademik İvane Cavaxişvilinin adını daşıyır.

Universitetin məlumatında bildirilir: “Gürcü təhsil ənənələrini nəzərə alan universitet, Gürcüstanda Avropa tipli ali məktəbin əsasını qoyub və bu gün də özünün miqyasına görə Gürcüstanda böyük təhsil ocağı kimi qalmaqdadır”.

1917-ci ilin mayında kimyaçı Petre Melikaşvilinin mənzilində universitet qurucularının ilk yığıncağı keçirilir. İclasa ictimai xadim Ekvtime Tağaişvili rəhbərlik edirdi. Həmin gün “Gürcü azad universiteti” cəmiyyəti təsis olunur və bu cəmiyyət ölkənin ilk ali təhsil müəssisəsinin yaradılmasında mühüm rol oynayır.

1917-ci ilin payızında cəmiyyətin üzvləri özündə humanitar elmləri, habelə riyaziyyat və təbiətşünaslığı birləşdirəcək fəlsəfə fakültəsinin açılmasını qərara alırlar. Artıq dekabrın sonlarında gürcü mətbuatında universitetə tələbə qəbulu haqqında elanlar görünməyə başlayır.

Professorlar şurası Petre Melikişvilini universitetin ilk rektoru seçir, İvane Cavaxişvili isə fəlsəfə fakültəsinə başçılıq edir.

## TBİLİSİDƏ GÜNƏŞ BATAREYALARI İLƏ İŞLƏYƏN FƏNƏRLƏRİN QURAŞDIRILMASINA START VERİLİB



Tbilisinin mərkəzində günəş batareyaları ilə işləyən fənərlər görünməyə başlayıb.

Müasir işıqlandırma sistemləri Qəhrəmanlar meydanında quraşdırılıb. Fənərlərin quraşdırılmasını “Tbilservis qrupp” həyata keçirib.

Küçə fənərləri günəş batareyalarında toplanan enerji hesabına işləyir.

Gün ərzində yığılan enerji gecə vaxtı istifadə olunur. Qaranlığın düşməsi ilə xüsusi mexanizmin köməyi ilə işıq avtomatik olaraq yanır.

Günəşli günlərdə batareyalar enerjini toplamaq qabiliyyətinə malikdir və bu enerji 10 saat işləmək üçün yetərlidir.

Fənərlərin quraşdırılması pilot layihə çərçivəsində həyata keçirilib. Yaxınlarda bu cür işıqlandırma sisteminin bütün şəhər ərazisində həyata keçirilməsi nəzərdə tutulur.

## AYAĞINIZIN ÜŞÜMƏMƏSİ ÜÇÜN AYAQQABINIZA ƏL GƏZDİRİN



Şaxtalı havada bahalı ayaqqabı da bəzən ayaqlarımızı isti saxlaya bilmir. İstər yun corab, istərsə də iki corabı üst-üstə geyinmək də bəzən kömək eləmir.

Bunun üçün sizə alüminium kağız, qələm və qayçı lazım gələcək.

Əvvəlcə ayaqqabının içliyini çıxarın. İçliyi alüminiumu kağızın üzərinə qoyun. Qələmlə cızaraq, ölçüsünə görə alüminium kağızdan yeni bir içlik kəsin. Kəsdiyiniz alüminium içliyi ayaqqabınızın içinə qoyaraq, üstünə ayaqqabınızın öz içliyini yerləşdirin.

Bu üsulla daha rahat və isti ayaqqabıya sahib olacaqsınız.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.